## TEATR SƏNƏTİ

UOT 792

**Böyükxanım Məmmədbəyova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət**
***Universitetinin dissertantı***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** bellatalibova73@gmail.com

# TƏDRİS TEATRI MÜASİR TEATR TƏHSİLİNİNYENİ TƏLƏB VƏ ŞƏRTLƏRİ MÜSTƏVİSİNDƏ

**Xülasə:** Təhsil və mədəniyyət sahəsi ölkənin mədəni-intellektual potensialını təmin edir. Buna görə də sənət yönümlü ali təhsil müəssisələrində tədris işinin təşkili çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda teatr təhsili ilə məşğul olan bir sıra orta-ixtisas və ali təhsil müəssisələri fəaliyyət göstərsə də, bu işin əsas ağırlıq mərkəzi, heç şəksiz, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetidir. Buna görə də məqalədə ADMİU-nun Tədris teatrı müasir teatr təhsilinin yeni tələb və şərtləri müstəvisində təhlilə çəkilir.

**Açar sözlər:** tədris teatrı, teatr sənəti, teatr pedaqogikası, aktyor, rejissor.

Təhsil və mədəniyyət sahəsi ölkənin mədəni-intellektual potensialını təmin edir. Buna görə də sənət yönümlü ali təhsil müəssisələrində tədris işinin təşkili çox mühüm əhəmiyyət daşıyır. Azərbaycanda bədii təhsillə məşğul olan bir sıra orta ixtisas və ali təhsil müəssisələri fəaliyyət göstərsə də, bu işin əsas ağırlıq mərkəzi, heç şəksiz, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetidir (ADMİU).

Mədəniyyət və incəsənətin müxtəlif sahələri üzrə kadr yetişdirilməsi işi, əsasən, bu ali təhsil ocağında həyata keçirilir. ADMİU-nun prioritet istiqamətlərindən ən başlıcası teatr təhsili ilə bağlıdır. Teatr texnikumu kimi yaranan, sonralar Teatr Sənəti İnstitutu adlanan bu təhsil müəssisəsi mədəniyyət və incəsənətin müxtəlif sahələrini əhatə etsə də, çoxprofilli kadr hazılığı ilə məşğul olsa da, şübhəsiz ki, teatr təhsili universitetin fəaliyyətinin əsas prioritet istiqamətlərindən biri və birincisi olaraq qalır.

Teatr təhsili gələcəyə yönəlmiş bir fəaliyyət sahəsi kimi teatr sənətinin gələcək inkişaf perspektivlərini təyin edir. Teatr təhsili verən müəssisələr öz fəaliyyətini peşəkar kompitent bacarıqları üzərində qurmağa qadir olan mütəxəssis yetişdirilməsi işi ilə məşğul olur. Müasir teatr təhsili ənənəvi teatr təhsilindən xeyli fərqlənir və bir sıra yeni səciyyələr qazanmaqdadır. Zamanın ritmi, dünyada teatr sənətinin sürətli inkişafı müasir teatr təhsilinin qarşısına yeni tələb və şərtlər qoyur.

Bu tələblərdən biri fənlərarası əlaqə ilə bağlıdır. Multidissiplinar yanaşma tədris prosesinə yeni məzmun qazandırır. Belə olduqda, tədris prosesi lazım olan bilik, bacarıq, vərdiş və təcrübəni əldə etmək vasitəsinə, vacib kompitentlik dərəcəsinə çatmaq məqsədi daşıyan fəaliyyətə çevrilir və beləliklə də, bu, bədii təhsilin müasirləşdirilməsi şəraitində gələcək aktyor, rejissor və teatrşünasların daha yaxşı yetişdirilməsini təmin edə bilər. Teatr təhsilinin modernizasiyası tədris teatrının da qarşısına yeni tələblər və vəzifələr qoyur. Hətta demək olar ki, müasir teatr təhsilində tədris teatrı tamam fərqli, çox mühüm yerlərdən birini tutur.

Mədəniyyət və İncəsənət Universitetinin Tədris teatrı aktyor tələbələrin öz gələcək peşələrinin bütün çətinliklərini ilk dəfə dərk etdikləri yaradıcılıq laboratoriyasıdır. Tədris teatrı tələbənin yaradıcı fərdiyyətini inkişaf etdirmək cəhdləri, yeni özünüifadə formaları və üsulları axtarışı ilə bağlıdır. Bu yaradıcılıq məkanı tələbə-aktyora dərin psixoloji, arxetipik qatlarda özünürealizə imkanları və vasitələri verir. Tədris teatrının başlıca funksiyalarından biri aktyor üçün çoxfunksiyalı psixofiziki sfera yaratmaq və onun daxili dünyasının inkişafı, formalaşdırılması üçün rəngarəng metodiki üsullardan istifadə etməklə bağlıdır.

Bəzən tədris teatrındakı işi səhv olaraq, peşəkar teatrdakı yaradıcılıq prosesi ilə eyniləşdirirlər. Bu cür yanaşma kökündən yanlışdır. Heç şəksiz ki, tədris teatrında tələbə-aktyor peşəkar səhnəyə doğru ilk addımını atır. Ancaq mahiyyətinə görə peşəkar fəaliyyət və tədris teatrındakı iş bir-birindən ciddi surətdə fərqlənir. Deməli, tədris prosesi də teatrdakı yaradıcılıq prosesindən fərqlənməlidir. Adətən, ADMİU-nun məzunu teatrda işləməyə başlayan zaman bir sıra təşkilati və yaradıcı problemlərlə üzləşir. Bəlli olur ki, məzun-aktyor peşəkar rejissorlarla əməkdaşlığa, repertuar planı çərçivəsində işə, sıravi tamaşaçı ilə görüşə hazır deyil. Məsələ burasındadır ki, məzun-aktyorun tədris teatrında oynamış olduğu kurs və diplom tamaşalarının tamaşaçıları, bir qayda olaraq, universitetin müəllim-tələbə heyəti, daha konkret desək, teatr sənətini bilən və sevən insanlar olur. Deməli, pul ödəyib bilet alaraq tamaşaya baxmağa gələn sıravi tamaşaçı ilə tələbələrdən, dostlardan, müəllimlərdən ibarət tamaşaçı kontingenti arasında fərqin olması təbiidir.

Yuxarıda toxunulan problemi bir qədər dərindən araşdırdıqda Tədris teatrının fəaliyyətində, eləcə də aktyor və rejissor yaradıcılığında özünü göstərən bəzi ciddi problemlər aşkarlanır. Bu problemlərin arasında daha ciddi olanları sadalasaq, belə bir mənzərə alınar:

- Tədris fəaliyyətinin mücərrəd obyekti olan bilgilərlə gələcək aktyor fəaliyyətinin tələbləri arasında ciddi fərqlər mövcuddur. Bəzən tələbə ikən əxz etdiyi bilgilər aktyorun təcrübi fəaliyyətində uğurun qarantı olmur;
- Məzun-aktyorun tədris prosesində topladığı təcrübəyə söykənən şəxsi təsəvvürləri ilə real gerçəklik arasında müəyyən fərqlər, hətta bəzən uçurum olur;
- Tədris prosesində tələbəyə təcrübə haqqında verilən informasiya ilə məzun-aktyorun öz təcrübəsini qazanmaq imkanı arasında fərq böyük olur.

Misal üçün, tələbənin K.S.Stanislavskinin “Mənim sənət həyatım” əsərini yaxşı bilməyi o demək deyil ki, tələbə yaradıcılıq prosesində analoji situasiyalarda eyni davranışı göstərəcək və eyni müvəffəqiyyəti qazana biləcək. Sözsüz ki, teatr təhsilində dünya və milli teatr sənətinin mövcud təcrübəsini öyrənmək olduqca əhəmiyyətlidir. Çünki dünya teatr tarixinin parlaq nümunələrindən xəbərdar olmayan tələbədə lazım olan bilgilər, meyarlar sistemi formalaşmır və belə olduqda o, “təkəri yenidən icad etməyə” xeyli vaxt, enerji sərf etməli olur. Ümumiyyətlə, nəinki teatr sənətində, bütün sahələrdə, xüsusən, humanitar sferada varislik prinsipi çox vacibdir. Tələbə-aktyor yalnız bir sistemi (“Stanislavski sistemi”) bilməklə kifayətlənməməli, bütün teatr sistemlərindən, təlimlərdən, nəzəriyyələrdən xəbərdar olmalıdır. Ancaq bu nəzəriyyə və təlimlərlə tanışlıq, onların adlarını, prinsiplərini mexaniki şəkildə əzbərləmək də tələbəyə heç nə verməyəcək. Müxtəlif təlimlərin, sistemlərin, fərqli rejissor və nəzəriyyəçilərin adlarını, fikirlərini əzbərləməklə aktyor ən yaxşı halda “ağıllı görünə” bilər. Bu görüntü isə çox şərtidir və ilk müstəqil yaradıcı iş zamanı dağılacaq. Axı, hər hansı pyesə, obraza, vəziyyətə öz münasibəti olmayan, ancaq “sitatlarla danışan”, özü isə heç nəyibacarmayan aktyor (yaxud rejissor) teatr prosesində hansı uğura nail ola bilər?! Buradan belə bir qənaət hasil olur ki, təcrübə haqqında məlumat əldə etmək hələ işin başlanğıcıdır. Aktyor, yaxud rejissor teatrşünas deyil ki, öyrənmək, danışmaq, yaxud yazmaqla kifayətlənsin. Aktyor əldə etdiyi hər bir bilgini bilavasitə praktiki işə, səhnə əməlinə tətbiq etməyi bacarmalıdır. K.S.Stanislavski yazırdı: “Bizim işdə bilmək bacarmaq deməkdir” (2). Yəni, aktyor bildiyini yaradıcılığa tətbiq edə bilmirsə, demək ki, onun bilməyi heç nəyə yaramır. Mövcud bilgiləri öz aktyor süzgəcindən keçirərək mənimsəyən aktyor bir yaradıcı şəxsiyyət kimi kamilləşə bilər. Ona görə də, teatr pedaqogiakasının, o cümlədən tədris teatrının qarşısında duran əsas problemlərdən biri tələbə-aktyoru bu istiqamətdə formalaşdırmaq, bilgilərini yaradıcılığa tətbiq etmək bacarığını inkişaf etdirmək və ona bu bacarığını həyata keçirmək üçün maksimum əlverişli şərait yaratmaqdan ibarətdir.

Tədris teatrını yalnız kurs tamaşası göstərmək, diplom işini təhvil vermək məkanı kimi təsəvvür edənlər çox yanılırlar. Tədris teatrı aktyor tələbənin bilgilərini emal edərək, yaradıcılığa tətbiq etməyi öyrəndiyi böyük bir məktəbdir, onun “bilmək” fazasından “bacarmaq” fazasına keçdiyi məqamdır. Əgər teatr fəaliyyətini obrazlı şəkildə rəsm əsərinə bənzətsək, aktyor-tələbənin tədris teatrındakı işini eskizlə müqayisə edə bilərik. Tələbə təhsil aldığı illər ərzində sənət müəllimlərindən “qələm” (fırça) tutmağı öyrənir, “düz xətt, əyri xətt çəkməyi, təsviri sənətin işıq, kölgə, pesrpektiv, miqyas kimi qaydalarını”

öyrənir, tədris teatrının səhnəsinə çıxdığı zaman isə bütün bu öyrəndiklərini birləşdirərək, gələcəkdə çəkəcəyi "tablo"ların eskizini çizir. Əbəs yerə biz, tədris teatrını bilgilərin və ideyaların poliqonu adlandırmırıq. Ona görə də teatr pedaqogikası ilə məşğul olan pedaqoqlar tədris teatrına, onun funksiyasına, missiyasına xüsusi diqqət və həssaslıqla yanaşmalıdırlar.

Pedaqogika elmində "bilgilərin təcrübəyə tətbiqi" adlandırılan problem-anlayış mövcuddur. Bu problem-anlayış teatr pedaqogikasında xüsusilə sivri xarakter daşıyır. Yuxarıda da qeyd etdiyimiz kimi, bəzən ADMİU-nun məzunu tədris müəssisəsinin divarlarından kənarda üzləşdiyi yaradıcı məsələnin qarşısında aciz qalır, tədris illərində öyrəndiyi bilgi və bacarıqları təcrübi işə tətbiq edə bilmir.

Bu problemin həlli üçün çox sayda üsul və vasitələr mövcuddur. Sözügedən problemi araşdıran pedaqoqların bir qismi belə bir çıxış yolu təklif edirlər: yaradıcı peşələrin tədrisi prosesini elə qurmaq lazımdır ki, təhsilin hər bir mərhələsində yaradıcılıq başlanğıcı olsun və beləliklə də, hər bir mərhələdə bədii vəzifələr aydın, dəqiq təyin olunsun.

Müasir elm, mühiti pedaqoji fenomen kimi qəbul edir. Bu gün teatr pedaqogikasında mütəxəssisin şəxsi peşəkar keyfiyyətlərinin yüksəldilməsi, tələbənin bilgi, bacarıq və peşəkar vərdişlərinin yaranması üçün ümummədəni mühitin potensialından istifadə vacib sayılır. Tədris teatrında aktyor və rejissor hazırlığı prosesi təcrübi yanaşmaya söykənir.

M.L.Sosnova ünsiyyətin polifoniyasını araşdırarkən belə qənaətə gəlir ki, "aktyor-tamaşaçı" münasibəti "mənayaradan" ünsiyyətdir. Teatrı bədii kommunikasiya zənciri kimi görən alim "cəmiyyət-dramaturq-rejissor-aktyor-tamaşaçı-tənqidçi-cəmiyyət" zəncirində hər həlqənin müəyyən nəticəsi olduğunu vurğulayır (bax: 4). Məsələn, cəmiyyət-dramaturq – pyesin mətnini, dramaturq-rejissor – gələcək tamaşanın ideal obrazını və rejissor konsepsiyasını, rejissor-aktyor – rolun obrazını, aktyor-aktyor – qəhrəmanların münasibətini, aktyor-tənqidçi – kitab, yaxud məqaləni yaradırsa, aktyor-tamaşaçı ünsiyyəti mənanı, tamaşaçı ilə ünsiyyət isə ünsiyyət polifoniyasını yaradır.

Müasir dövrdə teatrların bir çoxu bu funksiyaya laqeyd yanaşır. Tamaşaçı ilə arasına sərhəd qoyan teatr bu sənətin ontoloji (varolma) şərtlərindən ən vacibini - canlı ünsiyyəti itirir. Bu mənada, tədris teatrını aktyorların tamaşaçı ilə ünsiyyət qura biləcəyi bir məktəb kimi də dəyərləndirmək mümkündür. Tədris teatrında tələbə-aktyor peşə şərtlərinə yiyələnmək baxımından ona hava-su kimi lazım olan tamaşaçı ilə ünsiyyəti sınaqdan keçirir. Bu ünsiyyətdə aktyor canlı insan münasibətləri sayəsində ifa tərzini, oyun üslubunu, hər hansı obraza konkret aktyor yanaşmasını aprobasiyadan keçirə və təkmilləşdirə bilər.

Aktyor, ifası ilə hər bir tamaşaçını bütünlükdə teatr auditoriyasına aid etməklə onları ümumi emosional hala, ruhi ovqata kökləyir. Çağdaş cəmiyyətin ən böyük bəlalarından olan ünsiyyət çatışmazlığı teatr sənətinə ciddi zərbə vurub. Müasir texnologiyalar, İKT-nin nailiyyətləri, sosial şəbəkələr, kino və televiziyanın ekspansiyası insan əlaqələrinin canlı həlqələrini məhv etməkdədir. Çağımızın sözügedən ciddi sosiokulturoloji probleminin həlli, canlı insan ünsiyyətinin bərpası teatr sənətinin qarşısında dayanan əsas vəzifələrdəndir. Tədris teatrı da peşəkar teatrın modeli kimi istər- istəməz bu "yük"ün altına girməli olur. Tədris teatrının fəaliyyətində mütləq bu faktor nəzərə alınmalı, həm tələbə-aktyorun bir sənətçi kimi yetişməsindən, həm də cəmiyyətin ünsiyyət probleminin həllindən ötrü son dərəcə əhəmiyyətli olan "teatr-tamaşaçı" ünsiyyətinin qurulmasına ciddi yanaşılmalıdır. "Teatr- tamaşaçı" ünsiyyəti dedikdə, təbii ki, ilk növbədə, aktyor və tamaşaçı arasındakı əlaqə nəzərdə tutulur. Bəllidir ki, aktyor teatr sənətinin özülüdür və teatrın bütün fəaliyyəti nəticədə aktyor vasitəsi ilə vizuallaşır. Teatr kollektiv sənət olsa da, yekunda tamaşaçı qarşısına çıxan aktyordur. Aktyor-tamaşaçı ünsiyyəti isə heç zaman birvektorlu, birxətli olmur. Bu "mənayaradan" münasibətdə, böyük mənada, əsas və asılı tərəf yoxdur. "Məna"nın yaranmasından ötrü aktyor nə qədər önəmlidirsə, tamaşaçı da o qədər əhəmiyyətlidir. Bir məqama da toxunmaq lazımdır: əgər aktyor öz ifası ilə ortaq emosional məkan yarada, tamaşaçı zalında əyləşən insanları eyni dalğaya kökləyə bilirsə, deməli, yalnız aktyor-tamaşaçı arasında deyil, tamaşaçıların da arasında ünsiyyət yaranır. Doğrudur, bu ünsiyyət verbal yox, qeyri-verbal, hətta bəzən telepatik xarakter daşıya bilər. İndiki halda, ünsiyyətin növü, yaxud forması deyil, onun baş tutub- baş tutmaması əhəmiyyət kəsb edir. Bu baxımdan tədris teatrının rolu danılmazdır.

Peşəkar teatrlar öz üslublarını, iş prinsiplərini illərlə qazanılmış təcrübəyə istinadən qura bildikləri halda, tədris teatrının bu imkanı yoxdur. Teatr prosesindən çox tədris prosesinə xidmət edən tədris teatrı uzunmüddətli truppa yaratmaq, tədris işindən uzaqlaşaraq sırf yaradıcılıqla məşğul olmaq imkanından məhrumdur. Tədris teatrının bütün çətinlikləri də, üstünlükləri də məhz bu məqamla təyin olunur. Hər il Mədəniyyət və İncəsənət Universitetinə yeni tələbələr qəbul olunur. Bu isə o deməkdir ki, tədris teatrının kadr potensialı hər il yeniləşir, hər yeni kurs özü ilə yeni nəfəs, yeni yaradıcılıq ideyaları gətirir. Buna görə də, dünyanın bir çox ölkələrində ən yeni tendensiyalar teatr sənətinə məhz tədris teatrından gəlir.

Tələbə-aktyoru tamaşaçı ilə açıq ünsiyyətə hazırlamaq üçün tədris teatrında prokat şəbəkəsinin (tamaşanın satılması ilə bağlı şəbəkə) yaradılması da mühüm əhəmiyyət kəsb edir. Çünki tamaşaçı ilə canlı, düzgün və məhsuldar ünsiyyətin mexanizmlərinin qurulması bilavasitə tamaşanın hazırlanması və istehlakı prosesində mümkün ola bilər. Buna görə də müntəzəm prokat sistem-şəbəkəsinin qurulması tədris teatrı üçün olduqca vacibdir. Tədris teatrının aktyorları və rejissorları anlamalıdırlar ki, zalda əyləşən tamaşaçılar kimdir? Tamaşaçıların sosial tərkibi, ictimai mövqeyi, mill özəllikləri, adətləri, mədəniyyəti, ənənələri, təhsil səviyyəsi, yaşı, zövqü teatr-tamaşaçı münasibətlərinin qurulması üçünönəmli amillərdir.

V. Konetskaya kommunikasiyanın sosiologiyası haqqında yazır: "Kommunikator (əlaqə yaradan – B.M.) üçün uğurlu kommunikasiyanın başlıca şərti potensial auditoriyaya – həm kütləvi auditoriyanın, həm də kiçik qrupların fon biliklərinə və maraqlarına düzgün sosial orientasiyadır, yanaşmadır. İnformasiyanın toplanılması, onun optimal həcmi və strukturu, verbal və qeyri-verbal vasitələrin seçimi məhz bundan asılıdır" (3). Tədris teatrının ali məqsədi isə onun tamaşaçıda nəyi dəyişdirmək istəyi ilə bağlıdır. Tədris teatrı tələbə-aktyoru teatr kollektivinin üzvü kimi yetişdirməlidir. Yəni tədris teatrı üçün bu kollektivin hər bir üzvünün şəxsiyyət və sənətkar kimi yetişə bilməsi ilə yanaşı, komanda tərkibində işləmək bacarığına yiyələnməsi də çox vacibdir.

Tədris teatrının missiyası aktyorun dünyagörüşünün, özünüdərkinin formalaşdırılması, hisslərinin və emosiyalarının, həmçinin tamaşaçıya təqdim etdiyi "məhsul"a görə məsuliyyət hissinin tərbiyə edilməsindən ibarətdir. Tədris teatrında aktyorun işə, məşğul olduğu sənətə münasibəti formalaşır ki, bu da sənətçinin kimliyini, davranışlarının necəliyini təyin edir.

Tədris teatrı tələbə-aktyorun dünyagörüşünün, özünüdərk səviyyəsinin formalaşmasını, hisslərinin və emosiyalarının, tamaşaçıya təqdim etdiyi məhsula görə məsuliyyət hissinin yaranmasını təmin edir. Müxtəlif yaş qruplarına və sosial qruplara məxsus tamaşaçılarla müntəzəm görüşlər aktyoruöz peşəkarlıq səviyyəsini yüksəltməyə kökləyir.

Beləliklə, teatr və tamaşaçı münasibətində aparıcı rol aktyora məxsus olsa da, seyrçi də tamaşanın hazırlanmasında iştirak edir. Peşəkar aktyorun yetişdirilməsi işi də təcrübi metoda söykənir. Aktyor ifaçılığının peşəkar tələb və şərtlərini öyrənməklə yanaşı, tələbə-aktyor tədris teatrında mənəvi dəyərlərin daşıyıcısı, ötürücüsü kimi formalaşır. Bu isə bilavasitə tamaşaçı ilə fasiləsiz qarşılıqlı təsir zamanı yarana bilər. Peşəkar aktyor hazırlanması işinin bu prinsipi yalnız tədris teatrının xüsisi pedaqoji mühitində baş verə bilər.

Bu məqalədə biz aktyor və rejissor tələbələrin hazırlığı prosesinin effektivliyini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Səda" Tədris teatrının təcrübəsi nümunəsində araşdırmağa cəhd etmişik. Tədris teatrının mikromühiti tələbələrin peşəkar mütəxəssis kimi hazırlandığı və onların özünü inkişaf etdirdiyi vacib resursdur. Bu problemi müfəssəl şəkildə təhlilə cəlb etməklə belə bir qənaətə gəlmək olar ki, aktyor və rejissor sənəti ixtisası üzrə təhsil alan tələbələrin yaradıcı qabiliyyətlərinin inkişaf etdirilməsinin ən effektiv üsulu tədris prosesində əldə olunmuş bilgi, bacarıq və vərdişlərin tədris teatrında tətbiqi və realizəsidir. Qənaətləri ümumiləşdirən zaman aşağıdakı məqamları xüsusi qabartmaq lazımdır:

- Tədris teatrındakı yaradıcı iş təhsil müəssisəsindəki prosesin davamı və dərinləşdirilməsidir. Bu dönəmdəki proses ixtisas fənləri ilə məşqlər arasında möhkəm bağ yaradır və tələbəyə nəzəri bilikləri təcrübədə tətbiq etməyə imkan verir;
- Tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişafı və realizəsi məhz məşq prosesində, tamaşanın prokatı prosesində həyata keçirilir;
- Tamaşanın dəqiq qurulmuş daimi prokatı prosesində aktyor yetişdirilməsi üçün son dərəcə mühüm əhəmiyyət kəsb edən tamaşaçı ilə ünsiyyət baş verir ki, bu da tələbədə öz peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün motivasiya yaradır;
- Tədris teatrı yaradıcı, təşkilati-idarətemə və pedaqoji fəaliyyət nəticəsində aktyor hazırlığının həyata keçirildiyi xüsusi mədəni-yaradıcı mühitdir.

## Ədəbiyyat:

1. Sultanov F. Azərbaycanda teatr təhsili. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1995, 114 s.
2. Завадский Ю. А. Об искусстве театра / Предисл. П. А. Маркова. М.: ВТО, 1965. 347 с., с.

43

3. Конецкая В. П. Социология коммуникаций. – М., 1997. – С. 224. Həm də http://www.gumer.info/bibliotek_Buks/Sociolog/koneck/05.php
4. Соснова М. Л. Искусство актера: учеб. пособие для вузов. – М.: Академический Проект;Трикста, 2007. – 432 с.

**Бойукханум Мамедбекова****Роль учебного театра в системе преподования современного театрального искусства**

**Резюме**

Сфера образования и культуры страны обеспечивает весь его культурно-интеллекуальный потенциал. В этом направлении деятельности большая просветительская и образовательная работа возлогается высшим учебным заведениям, которые служат развитию культуры и искусства. Особая заслуга в этом деле принадлежит Азербайджанскому Государственному Университету Культуры и Искусства. Поэтому в этой научной статье, автор исследует важную роль учебного театра в системе преподования современного театрального искусства

**Ключевые слова:** учебный театр, театральное искусство, театральная педагогика, актер, режиссер.

**Boyukhanum Mamedbekova****The role of the educational theater in the system of teaching modern theatrical art**

**Summary**

The sphere of education and culture of the country provides all of its cultural and intellectual potential. In this area of activity, a great deal of educational work is given to higher educational institutions that serve the development of culture and art. Special merit in this matter belongs to the Azerbaijan State University of Culture and Art. Therefore, in this scientific article, the author explores the important role of the educational theatre in the system of teaching modern theatrical art.

**Keywords:** educational theatre, theatrical art, theatrical pedagogy, actor, director.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.11.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi:**

**29.11.2017Məqalənin çapa qəbul**
**olunma tarixi:  14.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə**
**redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor**
**Məryam Əlizadə**
**ADMİU-nun Elmi Şurasının  21 dekabr  2017-ci il, 04 saylı qərarı ilə çap olunur**